

# Çinin enerji şirkətlər qrupu "Powerchina Group" güvənli tərəfdaşdır

## Prezident İlham Əliyevin şirkətin icraçı vitse-prezidenti ilə Tiencin şəhərində keçirdiyi görüşdə əməkdaşlığımızın daha da genişlənəcəyinə əminlik bildirilib

**Prezident İlham Əliyev Çinin Tiencin şəhərində bu ölkənin bir sıra tanınmış şirkətlərinin rəhbərləri ilə görüşüb. Bu sırada "Powerchina Group" şirkətlər qrupunun özünəməxsus yeri var. Təsadüfi deyil ki, dövlətimizin başçısının "Powerchina Group"un icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşündə də şirkətin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd olunub.**

"Powerchina Group" Azərbaycanın enerji tərəfdaşıdır. Ötən ilin payızını xatırlayaq. Bakıda COP29-un davam etdiyi günlərdə Energetika Nazirliyi ilə Çinin "Powerchina Resources Limited" şirkəti arasında "yaşıl enerji" sahəsində anlaşma memorandumu imzalandı. "Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Powerchina Resources Limited" arasında Azərbaycanda bərpaolunan enerji layihələrinin inkişaf etdirilməsi üzrə Anlaşma Memorandumu" sənaye miqyaslı günəş PV layihələri, quruda-dənizdə külək-elektrik stansiyaları, hidro akkumulyasiya sistemi (PHS) və akkumulyator enerji saxlama sistemləri (BESS), inteqrasiya olunmuş" ağıllı enerji" və "yaşıl hidrogen" istehsalı layihələri, yerli mütəxəssislərin hazırlanması, texnoloji biliklərin mübadiləsi üzrə əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, PHS və BESS infrastrukturunun inkişafı, maliyyələşdirilməsi, tikintisi və texniki xidməti sahələrinə xüsusi diqqət yetiriləcək.

İmzalanma mərasimindən əvvəl isə energetika naziri Pərviz Şahbazovla "Powerchina Group"un vitse-prezidenti Xu Pengcheng və "Powerchina Resources Limited" şirkətinin prezidenti Yang Tianfu arasında görüş oldu. Görüşdə Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərində bərpaolunan enerji sahəsində əməkdaşlığın mühüm yer tutduğu qeyd olunub. Həyata keçirilən "yaşıl enerji"nin istehsalı və ixracı ilə bağlı meqalayihələr kontekstində Çin şirkətləri ilə əməkdaşlıq imkanları dəyərləndirildi.

"Powerchina Resources Limited"in xaricdə bərpaolunan enerji sahəsində sərmayə qoyuluşu həyata keçirən, geniş potensial və təcrübəyə malik bir şirkət kimi Azərbaycanda bu sahədə layihələrə sərmayə qoyuluşu, onların planlaşdırılması, layihələndirilməsi, tikintisi və istismarında əməkdaşlığa maraqlı olduğu qeyd edildi.

Prezident İlham Əliyevin bu ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən çoxsaylı sənədlər imzalandı. Təkcə "yaşıl enerji"yə aid imzalanan sənədlərin sayı 6 idi. O cümlədən Energetika Nazirliyi, "Powerchina Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış icra müqaviləsi mübadilə edildi. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovatsaat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

Layihənin həyata keçirilməsi üçün xüsusi layihə şirkətinin və rəhbər komitənin yaradılması nəzərdə tutulur. Sənəddə layihənin texniki-iqtisadi əsaslandırılması, layihələndirilməsi, maliyyələşdirilməsi, tikintisi, istismarı və texniki xidməti kimi istiqamətlər əks olunub. Energetika Nazirliyinin layihə üçün torpaq sahəsinin ayrılması, müvafiq icazələrin verilməsi və yerli resurslardan istifadə olunmasına dəstək göstərməsi planlaşdırılır. Layihə həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir.

Bir neçə kəlmə də "Powerchina Resources Limited" şirkəti haqqında. Bu şirkət Çində ən böyük enerji istehsalçılarından biridir. 25 yaşına qədəm qoyan şirkət Honkonq şəhərində yaradılıb və mənzil qərargahı da bu şəhərdə yerləşir. "Powerchina Resources Limited"in aktivləri 37 kömür, 3 qaz-istilik, 119 külək, 25 günəş və 2 su-elektrik stansiyası təşkil edir ki, bunların da ümumi gücü 43,4 giqovatdır. Şirkət Çinin əsasən şərq, cənub və mərkəzi regionlarında fəaliyyət göstərir.

Dövlətimizin başçısının bu günlərdə Tiencin şəhərində "Powerchina Group" şirkətlər qrupunun icraçı vitse-prezidenti ilə görüşü bir daha göstərdi ki, əməkdaşlığımız və tərəfdaşlığımız davam edir. Belə ki, görüşdə "yaşıl enerji", ətraf mühitin mühafizəsi, su resurslarının idarəolunması, çirkab suların təmizlənməsi, elektroenergetika və "yaşıl hidrogen" layihələri, tikinti, avadanlıq istehsalı sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Eyni zamanda günəş və külək-elektrik stansiyalarının inşası, "ağıllı enerji sistemləri"nin inteqrasiyası və yerli mütəxəssislərin hazırlanması üzrə əməkdaşlıqla bağlı perspektivlərə dair fikir mübadiləsi aparılıb. Göründüyü kimi, bu enerji qrupu ilə daha çox sahədə və daha geniş miqyasda əməkdaşlıq üçün perspektivlər var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***